**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

# SƏRƏNCAMI

**№** 329 "29" dekabr **2022-ci il**

**Müəssisələrdə kvota iş yerlərinin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli, 213 saylı Qərarına uyğun olaraq, 2023-cü il üçün "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota iş yerlərinin təsdiq edilməsi barədə" Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini, Məşğulluğa Kömək Göstərən Yerli Əlaqələndirmə Komitəsinin sədri Hacıbaba Babayevin Xidməti məruzəsini nəzərə alaraq "Yerli İcra Hakimiyyəti haqqında Əsasnamə"nin 6.8 və 3.8.0.1-ci bəndlərinə əsaslanaraq

**Qərara alıram:**

1. İşə düzəlməkdə çətinlik çəkən vətəndaşlar (20 yaşadək gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları tərbiyə edən valideynlər, pensiya yaşına 2 ildən az qalmış şəxslər, əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar, cəzaçəkmə yerlərindən azad edilmiş vətəndaşlar, məcburi köçkünlər, müharibə veteranları, şəhid ailələri) üçün idarə, müəssisə və təşkilatlarda Bakı Regional Məşğulluq filialı tərəfindən

Binəqədi rayonu üzrə hesablanmış kvota iş yerlərinin siyahısı təsdiq edilsin (siyahı əlavə olunur).

2. Bakı Regional Məşğulluq filialı Binəqədi rayonu üzrə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən işaxtaranların kvota iş yerinə göndərilməsini təmin etsin.

3. Kvota iş yerləri tətbiq edilmiş müəssisə rəhbərlərinə tövsiyə edilsin ki, Bakı Regional Məşğulluq filialının göndərişinə əsasən qarşılıqlı razılaşdırılmış kvota iş yerlərinə sosial müdafiəyə xüsusi ehtiyacı olanların işə qəbul olunmasını təmin etsinlər.

4. Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdirinə tapşırılsın ki, Bakı Regional Məşğulluq filialının müdiri Müseyib Əliyev ilə birlikdə Sərəncamın surətinin aidiyyəti üzrə müəssisələrə çatdırılmasını təmin etsinlər.

5. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Hacıbaba Babayevə həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR.**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN